**Azərbaycan Respublikasının**
**AUDİTORLAR PALATASI**

**CHAMBER OF AUDITORS**
**of the Republic of Azerbaijan**

AZ1072, Bakı, S.Y.Bakuvi küç. 35, Tel./Faks: 498-28-55, E-mail: audit-azerbaijan@audit.gov.az AZ1072, 35, S.Y.Bakuvi Str., Ph./Fax: 498-28-55

№ 10-1/2-111/2025 «05» mart 2025 il/year

***Azərbaycan Respublikası Auditorlar Palatasının əməkdaşları və üzvləri olan xanımlara 8 mart - Beynəlxalq Qadınlar Günü münasibətilə***
***T Ə B R İ K***

***Hörmətli xanımlar!***

*Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi və şəxsən öz adımdan Sizi – 8 mart Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə qadın xoşbəxtliyi, səadət və uğurlar diləyirəm.*

*Azərbaycan qadınları milli dəyərlərimizin qorunub saxlanılmasında müstəsna rol oynayır, ölkənin iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirak edir, dövlətin idarə olunmasında fədakar xidmətlər göstərirlər.*

*Möhtərəm Prezidentimizin müdrik rəhbərliyi, misilsiz cəsarəti və yüksək təşkilatçılıq bacarığı sayəsində Azərbaycanda vətəndaş cəmiyyəti formalaşmış, gənclərin və qadınların dövlət quruculuğuna geniş cəlb edilməsi gender bərabərliyinin təmin olunmasında da Azərbaycanın nüfuzunu yüksəltmişdir.*

*Əziz xanımlar!*

*Çox xoşdur ki, Sizlər şərəfli bir peşə sahibləri olaraq ölkəmizdə iqtisadiyyatın inkişafı naminə hesabatlılığın və şəffaflığın artırılması istiqamətində vəzifə borclarınızı şərəf və ləyaqətlə yerinə yetirirsiniz.*

*Ümidvaram ki, Siz tükənməz intellektual potensialınızla gündən-günə yeniləşən respublikamızın çiçəklənməsi naminə töhfələrinizi əsirgəməyəcək, möhtərəm Prezidentimizin Azərbaycan auditorlarının qarşısına qoyduğu ölkə iqtisadiyyatının daha da şəffaflaşması, auditin müstəqil nəzarət institutu kimi inkişaf etməsi işinə öz töhfənizi verəcəksiniz.*

*İnanıram ki, Auditorlar Palatasının üzvü olan auditor xanımları və əməkdaşları bundan sonra da Azərbaycan auditinə göstərilən diqqət və qayğıya cavab olaraq ölkə rəhbərliyinin etimadını doğruldacaq, iqtisadiyyatımızın tərəqqisinə və mənsub olduqları şərəfli və məsul auditor peşəsinə sədaqətlə xidmət edəcəklər.*

***Bayramınız mübarək, əziz xanımlar!***

***Dərin hörmətlə,***
***Azərbaycan Respublikası***
***Auditorlar Palatasının sədri***
***iqtisad elmləri doktoru, professor*** ***Vahid NOVRUZOV***

Azərbaycan Respublikasının Auditorlar Palatası
Chamber of Auditors of Azerbaijan Republic